ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

Kapital Bank

RFO
RESPUBLİKA FƏNN OLİMPİADALARI

# Coğrafiya
# aşağı yaş qrupu (8-9-cu siniflər)

**Ad**____________________ **Soyad**____________________

*İmtahan müddəti **180** dəqiqədir.
***1-10**-cu suallar **3 bal**, **11-20**-ci suallar **4 bal**, **21-30**-cu suallar **5 bal** ilə qiymətləndirilir.
*Hər səhv cavablandırılmış sual öz dəyərinin ¼-i qədər bal aparır.
*Nəzarətçilərə yalnız cavab kartları təqdim olunur.
*Olimpiadanın nəticələrini **www.olimpiada.edu.az** saytından və ya təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

**UĞURLAR!**
**27.02.2022**

**QR kodu oxudaraq nəticənizi əldə edin**

1. Syerra-Madre dağlarının yerləşdiyi ölkə:

A) Portuqaliya

B) ABŞ

C) Kolumbiya

D) İspaniya

E) Mesika

2. İki ölkə ilə həmsərhəd olan inzibati rayonları müəyyən edin.

A) Qazax, Zaqatala, Zəngilan, Culfa

B) Tovuz, Şəmkir, Qax, Kəngərli

C) Cəbrayıl, Şərur, Tovuz, Balakən

D) Qax, Tovuz, Ağstafa, Şahbuz

E) Zaqatala, Balakən, Qax, Şəki

3. Texnoloji cəhətdən bir-biri ilə qarşılıqlı əlaqədə olan istehsal sahələrinin və ya proseslərinin bir müəssisədə birləşməsi adlanır:

A) Qloballaşma

B) Koperativləşmə

C) İnteqrasiya

D) Kombinələşmə

E) İnflyasiya

4. Müxtəlif ölkələrdə təsərrüfat modelləri fərqlidir. Təsərrüfat modelində xidmət sahələrinin üstünlük təşkil etdiyi ölkələri seçin:

A) Danimarka, Niderland, Norveç, İordaniya

B) ABŞ, Almaniya, Kanada, Nigeriya

C) Fransa,Yaponiya, İtaliya, Belçika

D) İsveç, Almaniya, İsveçrə, Anqola

E) Yaponiya, Belçika, Böyük Britaniya, Banqladeş

5. Cədvəldə verilmiş göstəricilərin aid olduğu iqlim tipini müəyyən edin.

| | |
|---|---|
| Ən soyuq ayın orta temperaturu | 8° |
| Ən isti ayın orta temperaturu | 24° |
| İllik yağıntı miqdarı | 820 mm |
| İllik buxarlanma qabiliyyəti | 1100 mm |

A) Subekvatorial

B) Mülayim musson

C) Mülayim kontinental

D) Subtropik kontinental

E) Subtropik Aralıq dənizi

6. Düzgün olan bəndi müəyyən edin.

A) Xəzər dənizində şərqdən qərbə getdikcə orta duzluluq artır.

B) Araz çayının orta meyilliyi Kür çayının orta meyilliliyindən daha çoxdur.

C) Amazon çayının orta meyilliyi Kolumbiya çayının orta meyilliliyindən daha çoxdur.

D) Kolıma çayının sutoplayıcı hövzəsi bir işıqlanma qurşağında yerləşir.

E) Qarda gölünün yerləşdiyi ölkə "Böyük yeddiliyə" daxil deyil.

7. Xəritə-sxemə əsasən rəqəmlərlə göstərilən dağ silsilələrindən denudasiyaya daha uzun müddətli məruz qalanlarını müəyyən edin.




A) 1, 2, 4 B) 2, 4, 6 C) 1, 3, 5 D) 1, 2, 3 E) 2, 5, 6

8. Respublikamızın da daxil olduğu İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT və ya ECO) hansı ölkələr tərəfindən qurulmuşdur?

A) Pakistan, İran, Türkiyə

B) Rusiya, Çin, Hindistan

C) İran, Türkiyə, Qazaxıstan

D) Ukrayna, Türkiyə, Rumıniya

E) Pakistan, Türkiyə, Gürcüstan

9. Hansı şərti işarə ilə göstərilmiş faydalı qazıntıya ölkəmizin daha çox ərazisində rast gəlinir?

A) 

B) 

C) 

D) 

E) 

10. “Çernobıl” hadisəsinin baş verdiyi ölkəyə aid olan xüsusiyyətləri müəyyən edin.

1. Metallurgiya sənayesi yerli xammala əsaslanır.

2. Əhalinin əksər hissəsi qeyri-slavyan xalqlarıdır.

3. NATO və Avropa İttifaqı ölkələri ilə həmsərhəddir.

4. Sahilləri iki dənizin suları ilə yuyulur.

5. Ərazisində cavan dağlara rast gəlinmir.

6. İqtisadi fəal əhalinin əksər hissəsi kənd təsərrüfatı sahəsində çalışır.

A) 2, 5, 6 B) 1, 3, 4 C) 3, 4, 6 D) 1, 4, 5 E) 4, 5, 6

11. Aşağıdakı sxemdə isti atmosfer cəbhəsi təsvir edildiyini nəzərə alaraq, rəqəmlərlə göstərilən bulud növlərinin düzgün verildiyi bəndi müəyyən edin.




A) 1-Ləlәkvarı-laylı, 2-Ləlәkvarı, 3-Yüksək-laylı, 4-Laylı-yağışlı;

B) 1-Laylı-yağışlı, 2-Lələkvarı, 3-Yüksək-laylı, 4-Lələkvarı-laylı;

C) 1-Yüksək-laylı, 2-Laylı-yağışlı, 3-Lələkvarı-laylı, 4-Lələkvarı;

D) 1-Laylı-yağışlı, 2-Yüksək-laylı, 3-Lələkvarı-laylı, 4-Lələkvarı;

E) 1-Laylı-yağışlı, 2-Yüksək-laylı, 3-Lələkvarı, 4-Lələkvarı-laylı;

12. Xəritədə yaşıl rəngin çalarları ən yüksək göstəriciləri ifadə edir. Buna əsasən xəritənin hansı mövzudan bəhs etdiyini müəyyən edin.



A) Havanın su buxarı ilə doyma həddi
B) Faktiki buxarlanmanın miqdarı
C) Səpələnən radiasiyanın kəmiyyəti
D) Torpaqlarda humusun miqdarı
E) Ərazinin seysmikliyi

13. Respublikamızda yağıntıların 400-600 mm aralığında olduğu inzibati rayon mərkəzlərini seçin.

1. Qobustan 2.Göyçay 3. Gədəbəy

4. Xaçmaz 5. Xocalı 6. Goranboy

A) 1, 2, 4 B) 2, 4, 6 C) 1, 3, 5 D) 1, 2, 5 E) 2, 3, 6

14. Qara dənizdən Şimal dənizinə qısa yolla çıxmağa imkan yaradan çaylar:

A) Po və Elba

B) Dunay və Reyn

C) Dnepr və Luara

D) Dnestr və Sena

E) Dunay və Visla

15. Okeanda hərəkət edən səth cərəyanları səbəb ola bilər:

I. Çayların mənsəbində estuarinin formalaşmasına.

II. Okean səthinin duzluluğunun dəyişməsinə.

III. Hərəkət etdiyi okean səthində atmosfer təzyiqinin formalaşmasına.

IV. Okeanların səth sularının buxarlanmasının artıb azalmasına.

A) Yalnız I və IV  B) Hamısı  C) Yalnız II  D) Yalnız I, II və III  E) Yalnız I

16. Cədvələ əsasən doğru sıraları müəyyən edin.

| S/S | Dəniz | Mövqeyinə görə | Yerləşdiyi okean |
|---|---|---|---|
| 1 | Baffin | Adalararası | Şimal Buzlu |
| 2 | Şimal | Kənar | Şimal Buzlu |
| 3 | Andaman | Daxili | Hind |
| 4 | Fici | Kənar | Sakit |
| 5 | Liquriya | Daxili | Atlantik |
| 6 | Filippin | Kənar | Sakit |

A) 1, 5  B) 2, 3, 5  C) 4, 5, 6  D) 2, 4  E) 1, 6

17. Qış gündönümündə  günəş şüalarının günorta vaxtı düşmə bucağı 26,5° olduğu coğrafi enliklərdə, gecə ilə gündüzün uzunluqları arasında nə qədər vaxt fərqi olduğunu sxemə əsasən müəyyən edin.




A) 4 saat 51 dəqiqə

B) 3 saat 58 dəqiqə

C) 8 saat 30 dəqiqə

D) 9 saat 8 dəqiqə

E) 5 saat 44 dəqiqə

18. Verilmiş sxemə əsasən düzgün *olmayan* fikirləri müəyyən edin.




I. 6 rəqəmi ilə göstərilmiş küləyin sürəti 1 rəqəmi ilə göstərilən küləyin sürətindən böyükdür.

II. 3 və 6-cı rəqəmlərlə göstərilən küləklər yalnız üç okeanda müşahidə edilir.

III. 2 və 6-cı rəqəmlərlə göstərilən küləklər dinamik təzyiq qurşağından hərəkətə başlayır.

IV. 1,4 və 5-ci rəqəmlərlə göstərilən küləklər təsiri ilə yaranan okean cərəyanları, okean sularının duzluluğuna təsir etmir.

A) Yalnız I, II  B) Yalnız I, II, IV  C) Yalnız III  D) Yalnız III, IV  E) Yalnız IV

19. Rio Qrande çayının eroziya bazisini müəyyən edin.

A) Meksika körfəzi  B) Hudzon körfəzi  C) Müqəddəs Lavrenti körfəzi

D) Böyük Kölə gölü  E) Kaliforniya körfəzi

20. Uyğunluğu müəyyən edin.

1. Sakit okean

2. Atlantik okean

3. Hind okeanı

4. Şimal Buzu okean

a. Makarov çökəkliyi

b. Peru çökəkliyi

c. Kroze çökəkliyi

d. Kap çökəkliyi

A) 1 – d, 2 – b, 3 – c, 4 – a;

B) 1 – a, 2 – b, 3 – c, 4 – d;

C) 1 – b, 2 – d, 3 – c, 4 – a;

D) 1 – c, 2 – d, 3 – b, 4 – a;

E) 1 – b, 2 – a, 3 – d, 4 – c;

21. Kordilyer, Alp, Karpat, Pamir və And dağlarına uyğun gələn ümumi xüsusiyyətləri müəyyən edin.

A) Cavan dağlardır, hündürlüyü 2800 m-dən yüksəkdir, ərazisindən axan çaylar iki okean hövzəsinə tökülür.

B) İnkişaf etmiş ölkələrin ərazisində yerləşir, geotermik pillə kiçikdir, qar xətti mövcud deyil.

C) Meridian istiqamətində yerləşirlər, təkrar qırışıqlığa məruz qalıblar, ilboyu kölgə şimal istiqamətini göstərir.

D) Ərazisində dünya okeanına çıxışı olmayan ölkə var, fəaliyyətdə olan vulkanlar mövcuddur, nival landşaft mövcuddur.

E) Meşə landşaftı mövcuddur, seysmik cəhətdən fəaldır, ərazisində inkişaf etməkdə olan ölkə var.

22. Xəritə-sxemə əsasən rəqəmlərə uyğun gələn coğrafi obyektləri müəyyən edin.




A) 1 – Bakbo körfəzi, 2 – Zond boğazı, 3 – Mindanao adası, 4 – Sulavesi dənizi, 5 – Sulavesi adası, 6 – Timor adası;
B) 1 – Siam körfəzi, 2 – Malakka boğazı, 3 – Borneo adası, 4 – Sulu dənizi, 5 – Yava adası, 6 – Molukk adaları;
C) 1 – Tonkin körfəzi, 2 – Zond boğazı, 3 – Luson adası, 4 – Yava dənizi, 5 – Sualvesi adası, 6 – Kiçik Zond adaları;
D) 1 – Cənubi Çin dənizi, 2 – Malakka boğazı, 3 – Mindanao adası, 4 – Molukk dənizi, 5 – Timor adası, 6 – Sumatra adası;
E) 1 – Siam körfəzi, 2 – Zond boğazı, 3 – Luson adası, 4 – Sulu dənizi, 5 – Sulavesi adası, 6 – Molukk adaları;

23. Horizontal sxemləri ilə relyef formaları arasında uyğunluğu tapın.




A) b-5, c-1, f-4;

B) c-4, d-3, f-1;

C) a-1, c-4, e-6;

D) a-6, d-5, e-2;

E) b-5, e-6, f-1;

24. 2020-ci ildə erməni işğalından azad edilmiş kəndləri, verilmiş inzibati rayonlara müvafiq qruplaşdırıb yazın.

I. Qubadlı

II. Cəbrayıl

III. Kəlbəcər

IV. Laçın

V. Zəngilan

VI. Xocalı

1. Güləbrid 2. Çanaqçı 3. Başlıbel

4. Eyvazlı 5. Dağ Tumas 6. Bartaz

A) I-1; II-4; III-3; IV-2; V-5; VI-6;

B) I-5; II-4; III-3; IV-1; V-6; VI-2;

C) I-4; II-3; III-2; IV-1; V-6; VI-5;

D) I-4; II-5; III-3; IV-1; V-6; VI-2;

E) I-6; II-2; III-1; IV-5; V-3; VI-4;

25. Uran ən mühüm radioaktiv element olub nüvə enerjisinin alınmasında istifadə olunur. Hal-hazırda ondan sülh məqsədilə, atom-elektrik stansiyaları, atom mühərrikləri, sualtı atom qayığı və s. sahələrdə istifadə olunur. Uran filizi tərkibinə görə çox "kasıb"dır. Uranın saflaşdırılması, yəni filizdən uran elementinin ayrılması onun çıxarıldığı ərazilərdə həyata keçirilir. 1 kq uran əldə etmək üçün nə qədər filiz tələb olunduğunu hesablayın.

A) 8 ton B) 30 ton C) 5 ton D) 12 ton E) 15 ton

26. Antarktida materikinin sahillərində yerləşən Qərb yarımkürəsinə (I) və Şərq yarımkürəsinə (II) uyğun gələn dənizləri qruplaşdırın.

A) I – Deyvis, Dürvil, Riser-Larsen

II – Ueddell, Amundsen, Ross

B) I – Ross, Bellinshauzen, Dürvil

II – Lazarev, Kosmonavtlar, Birlik

C) I – Ross, Bellinshauzen, Riser-Larsen

II – Dürvil, Kosmonavtlar, Lazarev

D) I – Ueddell, Lazarev, Amundsen

II – Bellinshauzen, Deyvis, Birlik

E) I – Ueddell, Bellinshauzen, Amundsen

II – Kosmonavtlar, Deyvis, Birlik

27. Ardıcıllığın pozulmadığı sıraları müəyyən edin.

1. Tikanlıçay → Girdimançay → Kür → Xəzər
2. Daşağılçay → Əyriçay → Qanıx → Kür
3. Cigilçay → Sumqayıtçay → Xəzər
4. Qarqarçay → Köndələnçay → Araz → Kür
5. Kürmükçay → Qanıx → Kür → Xəzər
6. Həsənsuçay → Ağstafaçay → Kür → Xəzər
7. Oxçuçay → Həkəriçay → Araz → Kür
8. Əlicançay → Türyançay → Kür → Xəzər

A) 3, 4, 6 B) 3, 5, 7 C) 1, 5, 8 D) 2, 3, 5 E) 1, 4, 5

28. Şimal yarımkürəsində Günəş şüalarının minimum düşmə bucağı $63,5^0$ olan coğrafi enliklə V saat qurşağının orta meridianından $5^0$ qərbdə yerləşən coğrafi uzunluğun kəsişməsində dayanan müşahidəçi əvvəlcə $0^0$ azimutla 4107 km yol getdikdən sonra, şərq istiqamətində 1708 km hərəkət edərək A ölkəsinə çatmışdır. A ölkəsinin inzibati ərazi quruluşunu, idarəetmə formasını və yerləşdiyi iqlim qurşaqlarını müəyyən edib yazın.

A) unitar; monarxiya; tropik və subekvatorial

B) federativ; respublika; mülayim, subarktik və arktik

C) federativ; respublika; tropik, subtropik və subekvatorial

D) unitar; respublika; mülayim, subtropik və subekvatorial

E) unitar; respublika; mülayim

29. Qrafikdə rəqəmlərlə göstərilən məntəqələrdə gecə və gündüzün uzunluqları verilmişdir. Bunu nəzərə alaraq doğru fikirləri müəyyən edin.




1. I Məntəqənin yerləşdiyi coğrafi enlik mülayim işıqlanma qurşağında mövcud ola bilər.

2. II Məntəqənin yerləşdiyi paralel xətti bütün okeanlarda mövcud ola bilər.

3. III Məntəqə Tropik işıqlanma qurşağında yerləşə bilməz.

4. IV Məntəqədə il içərisində gecə ilə gündüz bərabər ola bilməz.

A) Yalnız 4 B) Yalnız 2, 3 C) Yalnız 1, 2, 3 D) Yalnız 2 E) Yalnız 1, 2, 4

30. Kanberra şəhəri üçün (35$^o$c.e., 149$^o$ş.u.) doğru bəndi seçin.

A) X saat qurşağının orta meridianı ilə arasında olan ən qısa məsafə 71,7 km-dir.

B) Havanın su buxarı ilə doyma həddinin maksimum olduğu vaxt yanvar ayında müşahidə edilir.

C) Mülayim iqlim qurşağının dəniz vilayətinin enliyarpaq meşələr zonasında yerləşir.

D) Yerləşdiyi qitənin ən böyük şəhəri və ən mühüm sənaye mərkəzidir.

E) 1:20000000 miqyaslı bərabərsahəli xəritədə paytaxtı olduğu ölkənin sahəsi təqribən 175 $sm^2$-dir.

Düzgün cavablar:
1E 2A 3D 4C 5E 6B 7E 8A 9C 10B
11D 12A 13D 14B 15B 16A 17E 18D 19A 20C
21E 22E 23* 24D 25C 26E 27D 28D 29C 30B
Qarşısında * qoyulmuş cavab sehv olduğu üçün
şagirdlerin xeyrine hesaplanir.